UOT 159.9

***Gülnarə Həmzəbəyovna Əlixanova***
*psixologiya üzrə fəlsəfə doktoru*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi*

# NİZAMİ GƏNCƏVİNİN ƏSƏRLƏRİNDƏ ŞƏXSİYYƏTİN FORMALAŞMASINA DAİR PSİXOLOJİ FİKİR VƏ İDEYALAR

***Гюльнара Гамзабековна Алиханова***
*доктор философии по психологии*
*старший преподаватель*
*Азербайджанского Государственного Педагогического Университета*

# ПСИХОЛОГИЧЕСКИЕ МЫСЛИ И ПРЕДСТАВЛЕНИЯ О ФОРМИРОВАНИИ ЛИЧНОСТИ В ТВОРЧЕСТВЕ НИЗАМИ ГЯНДЖЕВИ

***Gulnara Hamzabay Alikhanova***
*doctor of philosophy in psychology*
*senior lecturer at*
*Azerbaijan State Pedagogical University*

# PSYCHOLOGICAL THOUGHTS AND REPRESENTATIONS ABOUT THE FORMATION OF PERSONALITY IN NIZAMI GANJEVI'S WORKS

**Xülasə.** Qüdrətli söz ustası N. Gəncəvinin bəşəriyyətin bədii fikir salnaməsində yeni parlaq səhifə açmış ölməz əsərləri bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsinə misilsiz xidmət göstərir. Dahi şair və böyük tərbiyəçi olan N. Gəncəvi yaratdığı misilsiz əsərlərində təhsil, təlim, tərbiyənin və şəxsiyyətin formalaşması haqqında elə dəyərli fikir və ideyalar irəli sürmüşdür ki, bu gün də öz əhəmiyyətini itirməmişdir.
***Açar sözlər:*** *N. Gəncəvi, şəxsiyyət, özünüqiymətləndirmə, kamil insan, vətənpərvərlik, kamil insan*

**Резюме.** Бессмертные произведения великого мастера слова Н. Гянджеви, открывшего новую яркую страницу в сокровищнице художественной мысли человечества, по-прежнему служат духовному и нравственному совершенствованию людей. Гениальный поэт и великий просветитель Н. Гянджеви в своих уникальных произведениях выдвинул такие ценные мысли и идеи об образовании, обучении, воспитании и формировании личности, которые не утратили своей значимости и сегодня.
***Ключевые слова:*** *Н. Гянджеви, личность, чувство собственного достоинства, идеальный мужчина, патриотизм, идеальный мужчина*

**Summary.** The immortal works of the great master of words N. Ganjavi, who opened a new bright page in the annals of artistic thought of mankind, still serve the spiritual and moral perfection of people. N. Ganjavi, a genius poet and a great educator, put forward such valuable ideas and ideas about education, training, upbringing and formation of personality in his unique works that have not lost their significance even today.
***Key words**: N. Ganjavi, personality, self-esteem, perfect man, patriotism, perfect man*

Poeziya dünyasının dahisi Nizami Gəncəvinin ölməz ədəbi irsi təkcə humanizm, insana məhəbbət, yüksək əxlaq, estetik zövq, tərbiyə və bilik mənbəyi, heç vaxt qiymətini, etik təsirini itirməyən əlvan söz, dərin fəlsəfi fikir, hikmət xəzinəsi olmaqla bərabər, həm də canlı tariximizdir, keçmişimizin ən qaranlıq guşələrinə işıq salan sönməz məşəldir. Bəşər bədii fikrinin nadir hadisəsi olan Nizami yaradıcılığı doqquz əsrdən artıqdır ki, xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmişdir.

Böyük sənətkarın bütün həyatı və zəngin ədəbi fəaliyyəti həmin dövrdə təkcə Azərbaycanın və Qafqazın ən iri şəhəri deyil, eyni zaman-

da Yaxın və Orta Şərqin mühüm mədəniyyət mərkəzi kimi tanınmış Gəncə ilə bağlıdır (1, s. 51). Şair ömrü boyu burada yaşayıb yaratmış və dünya poeziyasına bir-birindən dəyərli söz sənəti inciləri bəxş etmişdir. Nizami Gəncəvi ümumbəşəri mahiyyət daşıyan, ecazkar poetik qüvvəyə malik yaradıcılığı ilə Şərq bədii təfəkkürünü elmi fəlsəfi fikirlərlə zənginləşdirmiş və şeiriyyəti görünməmiş yüksəkliklərə qaldırmışdır. Korifey sənətkar öz ənənələri ilə seçilən ədəbi məktəbini yaratmışdır. Nizami Gəncəvinin dünyanın ən zəngin kitabxanalarını bəzəyən əsərləri Şərqdə incəsənətin, xüsusən də miniatür sənətinin inkişafına təkan vermişdir. Mütəfəkkir şairin məşhur "Xəmsə"si insanlığın mənəvi sərvətlər axtarışının zirvəsində dayanaraq, dünya ədəbiyyatının şah əsərləri sırasında layiqli yer tutur.

Nizami irsi uzun zamandan bəri dünya elmi-ədəbi fikrinin diqqət mərkəzindədir. Cənab İlham Əliyevin Sərəncamı ilə 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi ölkəmizdə klassik ədəbi irsimizin, milli ədəbiyyatımız və mədəniyyətimizin görkəmli simalarının təbliği sahəsində atılan növbəti addım və əsas məqsəd isə Nizami Gəncəvi yaradıcılığının Azərbaycan xalqının mənəviyyat xəzinəsində rolu və yerini gənc nəslə çatdırmaqdır (2, s. 143).

N. Gəncəvinin sonsuz dəryaya bənzəyən ədəbi irsində təhsil, təlim, tərbiyə və insan şəxsiyyətinin formalaşması məsələləri mühüm yer tutur. Nizami irsində şəxsiyyətin formalaşmasına qarşılıqlı əlaqədə təsir edən amillərin hər biri (irsiyyət, ictimai mühit, tərbiyə, əmək fəaliyyəti) haqqında bu gün də öz aktuallığını saxlayan dəyərli fikirlərin irəli sürdüyünün şahidi oluruq.

Görkəmli mütəfəkkir N. Gəncəvi irsiyyətin rolunu şişirdənlərdən fərqli mövqedə dayanmış, "şəxsiyyətin formalaşmasında digər amillərin də öz payının mövcudluğu fikrində olmuşdur. Mühit amilinin rolunu dəyərləndirən şair əsərlərində belə bir ideyanı aşılayır ki, insanın mənəvi keyfiyyətlərinin formalaşmasında onu əhatə edənlərin rolu əvəzsizdir. "Əgər insansansa, insanları sev" tövsiyəsini verən humanist şair yaxşı adamlarla durub-oturmağı, pis adamlardan uzaq olmağı məsləhət görür. "Ağılsız kəslərlə oturub-duran, ağıldan, şüurdan deməsin dastan", – deyən şair başa salır ki, elmli, mərifətli adamlarla dost olsan, həmin keyfiyyətlər sənə də keçər.

Şəxsiyyətin formalaşmasında mühitin rolu məsələsinə şair "Leyli və Məcnun" poemasında daha geniş toxunmuş və anlatmağa çalışmışdır ki, pis mühit insana mənfi təsir göstərdiyi kimi, yaxşı mühit də müsbət əxlaqi keyfiyyətlərin formalaşmasına səbəb olur (3, s. 235).

Dahi şair şəxsiyyətin formalaşmasında təhsil, təlim və tərbiyəyə, yəni pedaqoji proses amilinə xüsusi önəm vermişdir. "Qüvvət elmdədir, başqa cür heç kəs, heç kəsə üstünlük eyləyə bilməz" – deyən şairə görə insanı heyvanlardan fərqləndirən əsas əlamət onun ağlı, kamalıdır. Ağlın çırağı isə elmdir, bilikdir. O, təhsilin məzmunundan bəhs edərkən dini biliklərlə yanaşı, dünyəvi biliklərin verilməsinə xidmət edən elmlərin: riyaziyyat, astronomiya, kosmologiya, coğrafiya, təbabət və s. əhəmiyyətini, dünyagörüşünün formalaşmasında rolunu göstərmişdir. Elmi biliklərə yiyələnməkdə təlimin rolunu kamil insan obrazı kimi yaratdığı İsgəndərin təlim alması səhnəsində konkret nümunələr əsasında göstərmişdir:

Şəhanə tərbiyə, hünər, nəzakət,
Ağıla nur verir, ürəyə qüvvət.

Eyni zamanda "Yeddi gözəl" poemasında şair öyrədir ki, öz-özünü başa düşən, özünü yaxşı tanıyan insana ölüm yoxdur:

Kim ki, öz-özünü düşmüşdür başa,
Ona ölüm yoxdur, o ölməz haşa.
Nəqşini bilməyən fanidir, fani,
Baqi say bu nəqşi bilən insanı.
Tanısan özünü, köçsən cahandan,
Yenə bu dünyada yaşayacaq

Təlim və tərbiyənin şəxsiyyətin hərtərəfli inkişafında böyük rol oynadığını dönə-dönə qeyd etməklə yanaşı, şair biliklərin mənimsənilməsinin və mənəvi keyfiyyətlərin aşılanmasının vasitə, forma və yollarını da göstərmişdir. Şair-pedaqoqun fikrincə, həm təlimin, həm də tərbiyənin ən qüdrətli vasitələrindən biri sözdür. Sözü "insanın əzəl sirdaşı", bu dünyanın "naxşı" hesab edən şair bütün poemalarında onun tərifini, dəyərini verməklə yanaşı, söz demək qaydaları haqqında da öz tövsiyələrini də qeyd etmişdir. Məsələn, "Sirlər xəzinəsi" poemasında "Sözün tərifi"nə ayrıca yer verən şair burada göstərir ki, ürəyə can verən, yer üzünə qələmin vasitəsi ilə incilər səpən, kainatın gözünü açan, insanlara danışmağı öyrədən, düşüncəmizə, duyğularımıza qol-qanad verən, "min-min əsər

bitirən" sözdür. Sözdən həm incə, həm də kəsərli, sözdən güclü həyatda heç nə yoxdur:

Yeniliklər törədən bu qoca kainatda,
Sözdən incə, kəsərli heç nə yoxdur həyatda.

Dahi Nizami Gəncəvi şəxsiyyətin formalaşması probleminə dair müasir psixologiyanın həll etməyə çalışdığı məsələlərlə bağlı fikirləri hələ doqquz əsrə yaxın müddət bundan əvvəl söyləmişdir. Həmin fikirləri belə ümumiləşdirmək olar:

– şəxsiyyətin formalaşmasında irsiyyətin rolu böyükdür, lakin həlledici deyil, bəzən "daşdan gövhər" də doğa bilər;

– kamil insanın formalaşmasında elmin, təhsilin, təlim və tərbiyənin əhəmiyyəti şübhəsizdir, lakin özünütəhsil və özünütərbiyənin rolu daha böyükdür;

– şəxsiyyətin formalaşmasında ictimai mühitin rolu da az deyil; mərifətli, elmli adamlarla oturub-durmaq lazımdır ki, həmin keyfiyyətlər sənə də keçsin; əlverişsiz, qeyri-sağlam mühitdə təlimtərbiyə vermək – şoran torpağa toxum əkməyə bənzər;

– şəxsiyyətin formalaşmasında əmək fəaliyyətinin də rolu böyükdür: halal əmək insanda ən yüksək əxlaqi keyfiyyətlərin formalaşmasına, boş-boşuna gəzib tüfeyli həyat sürmək isə mənfi əxlaqi sifətlərin yaranmasına səbəb olur.

Şəxsiyyətin psixoloji – pedaqoji tərbiyəsi nəzəriyyəsinə aid olan bütün mövzular dahi şairin pedaqoji fikir və ideyalarında öz əksini tapır. Tərbiyənin təkcə ağıl tərbiyəsi deyil, bütün əsas ilə bağlı dahi Nizaminin bu gün də öz əhəmiyyətini itirməyən hikmət dolu beytləri hədsizdir (4, s. 39).

Əxlaqi keyfiyyətlərə dahi Nizami bütün poemalarında xüsusi diqqət yetirmiş, bir sıra nümunəvi dost obrazları yaratmışdır. "Yaxşı dost dar gündə tanınar", deyən ulularımızın bu hikmətini şair poetik təfəkkürün gücü ilə daha da qüvvətləndirərək N. Gəncəvinin özü böyük vətənpərvər olmuşdur. O, doğma yurdu Gəncəni ömrünün sonunadək tərk etməmişdir. Vətənpərvərlik anlayışına çox geniş mənada yanaşan Nizamiyə görə vətənpərvərlik təkcə vətəni sevməklə bitmir, əsl vətənpərvərlik Vətəni yadellilərdən qorumaqdır. Şairin əqidəsinə görə, Vətəni hamı sevməli və qorumalıdır.

"Kamil insan konsepsiyasına axıradək sadiq qalan böyük şair peşə seçmək işində də məsləhət görür ki, hansı peşəni seçməyindən asılı olmayaraq, insan çalışmalıdır ki, öz sənətinin kamil ustası olsun, seçdiyi peşənin dərinliyinə və incəliklərinə bələd olsun. Şairin qəti inamına görə: "kamil bir palançı olsa da insan, yaxşıdır yarımçıq papaqçılıqdan."

Dahi şair N. Gəncəvi əsərlərində qeyd etdiyi mənəvi keyfiyyətlərin əhəmiyyətini şərh etməklə yanaşı, əxlaq tərbiyəsinin bir sıra üsul, vasitə və tərzlərini də göstərmişdir. Məsələn: 1) faydalı işə, halal zəhmətə cəlb etmək; 2) əxlaqi söhbət; 3) öyüd-nəsihət, məsləhət və göstəriş vermək; 4) inandırmaq və ruhlandırmaq; 5) müzakirə və dialoq; 6) tərbiyələndirici situasiyanın yaradılması; 7)rəğbətləndirmə (təriflәmək, alqışlamaq, hədiyyə almaq, təqdir etmək ) və cəzalandırma (məzəmmət etmək, danlamaq, şikayətlənmək, etirazını bildirmək, məhrum etmək, ibrət dərsi vermək və s.) (5, s. 32).

Dahi şairin şəxsiyyətin formalaşmasında psixoloji xüsusilə, özünüdərk, özünüqiymətləndirmə, özünütərbiyə, ünsiyyət, müəllim-şagird münasibətləri haqqında da dəyərli fikirlər, poeziyasında bu məsələlərlə bağlı dərin mənaya və yüksək poetik ifadə tərzinə, güclü psixoloji təsir qüvvəsinə malik misralar çoxdur. Nizaminin psixoloji görüşlərindən faydalanmaq baxımından onun psixologiyaya aid elmi anlayışların (şəxsiyyət, hiss duyğu, qavrayış, idrak, təfəkkür, təxəyyül, ağıl, diqqət, hafizə, unutma, müqayisə, iradə, özünüdərk, özünüqiymətləndirmə, vərdiş, adət, motivasiya, temperament və s.) daha dərindən və daha asanlıqla mənimsənilməsi idrak maraqlarının inkişafı üçün əlverişli psixoloji zəmin yaradır.

Bütün poemalarında "Əgər insansansa, insanları sev" tövsiyəsini verən humanist şair yaxşı adamlarla durub-oturmağı, bədəsil olanlardan uzaq olmağı yaxşı tərbiyənin əsas şərtlərindən biri hesab edir. Məsələn, "Ağılslz kəslərlə oturub-duran ağıldan, şüurdan deməsin dastan", – deyən şair başa salır ki, elmli, mərifətli adamlarla dost olsan, həmin keyfiyyətlər sənə də keçər:

Bədəsil olarsa əgər bir adam,
Qırmızı gövhəri saraldar tamam.
Ağıllı adamla dost olsan əgər,
Elmi, mərifəti sənə də keçər.

Nizaminin poeziyasında "özünüdərk" və "özünüqiymətləndirmə" məsələləri mühüm yer

tutur. Onun qəti inamına görə: "Öz-özünü başa düşən şəxsə ölüm yoxdur", amma nəqşini (öz mənini, kimliyini) bilməyən fanidir. Buna görə də insan bir şəxsiyyət kimi özünü dərk etməli, özünü yaxşı tanımalıdır". Daha sonra "Leyli və Məcnun" poemasında şairin oğlu Məhəmmədə etdiyi nəsihətdən aşağıdakı parçanı misal gətirə bilərik:

Özünü şərh edib özünü öyrən!
Ol öz vicdanının sirrinə açar,
Çünki bu mərifət qəlbə nur saçar.

Bu hikmətli misralara görə müdrik şairimiz N. Gəncəvi "insanın özünü öyrənməsini onun dünyanı öyrənməsi kontekstində nəzərdən keçirirdi". "Özünüqiymətləndirmə" anlayışının mahiyyəti dahi Nizaminin fikrincə, insanın özünü tanıması üçün özünü düzgün qiymətləndirməsi, öz nöqsanlarını görməyi bacarması vacibdir. Analoji misalların sayı şairin poeziyasında istənilən qədərdir.

Müasir dövrün pedaqoq və psixoloqları şəxsiyyətin formalaşmasına təsir edən amillər içərisində fəaliyyət amilini də xüsusi qeyd edirlər. Halbuki dahi şair-pedaqoq hələ doqquz yüz il əvvəl bu amilin, xüsusilə əmək fəaliyyətinin rolunu "Xəmsə"də geniş qeyd etmiş, "həyat-əməkdir" ideyasını irəli sürmüşdür. Onun fikrincə, əməksevərlik, çalışqanlıq, halal əməklə yorulmadan məşğul olmaq insanda bir sıra müsbət əxlaqi keyfiyyətlər formalaşdırdığı kimi, tənbəllik, yeyib-yatmaq, avaraçılıq da mənfi sifətlərin öküzə, camışa, eşşəyə, milçəyə, ağcaqanada və s. heyvanlara xas olan cəhətlərin yaranmasına səbəb olur. Mütəfəkkir şairin möhkəm inamına görə əmək fəaliyyəti təkcə əxlaq tərbiyəsinin deyil, əqli və fiziki tərbiyənin də mühüm amillərindən biridir (6, s. 97).

Nizaminin poeziyası artıq doqquz əsrə yaxındır ki, insanların qəlbini öz işığı ilə nurlandırır, onları ağıla, kamala, dünyanın sirlərinə dərindən bələd olmağa, "hər gizli xəzinədən bir dürr çıxarmağa", dərin biliklərə yiyələnməyə, mənəvi saflığa, fiziki kamilliyə, haqqa-ədalətə riayət əyməyə, yalandan və lovğalıqdan uzaq gəzməyə, özünü dərk etməyə, tanımağa və düzgün qiymətləndirməyə, bir sözlə, əsl şəxsiyyət kimi "kamil insan" zirvəsinə yüksəlməyə səsləyir.

**Məqalənin aktuallığı.** N. Gəncəvinin əsərlərində şəxsiyyətin formalaşmasına dair psixoloji fikir və ideyaların psixoloji mahiyyətinin əsas təzahürlərini müəyyənləşdirmək, müasir psixologiyanın elmi – nəzəri tələbləri səviyyəsində onların təhlilini verməkdən ibarətdir.

**Məqalənin elmi yeniliyi.** N. Gəncəvinin əsərlərində şəxsiyyətin formalaşmasına dair psixoloji fikir və ideyaların psixoloji mahiyyətinin izahı, özünüdərk, özünüqiymətləndirmə kimi müsbət xüsusiyyətlərlə yanaşı, şəxsiyyətdə baş verən nöqsan və çatışmazlıqlara da yaxından bələd olmağa köməklik göstərən fikir və ideyaları müəyyənləşdirməkdən ibarətdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən elmi yaradıcılıq işində bu mövzu ilə maraqlananlar, pedaqoqlar, psixoloqlar, eləcə də ali və orta ixtisas məktəblərinin tələbə və magistrləri istifadə edə bilər.

**Ədəbiyyat:**


1. Babayeva T.T. Nizami Gəncəvinin ədəbi irsində şəxsiyyət problemi. Bakı: Nurlan, 2000, 198 s.
2. Cərullazadə N. Nizami Gəncəvinin şəxsiyyət konsepsiyası // Filoloji araşdırmalar. Bakı: Kitab XIX., 2003, s.142-147.
3. Əlizadə Ə., Şirinova Z. Nizami Gəncəvinin psixoloji görüşləri. Bakı: ADPU, 2006, 277 s.
4. Xəlilzadə F. Sönməz günəşin hikmət dəryası. "Azərbaycan" qəz., 1 fevral 2012, s. 38-41
5. Ibrahimov Ş. Bütün dünyanın böyük mütəfəkkiri // Təhsil, 2012, № 1, s. 30-35.
6. Şirinova Z. Nizami Gəncəvinin psixoloji görüşləri, Bakı, 2002, 151 s.


**E-mail:** gulnare.alixanova@mail.ru

**Rəyçilər:** *psixol.ü.elm.dok., prof.* **Ə.T. Baxşəliyev,**
*psixol.ü.fəls.dok., dos.* **M.C. İsmayılova**

**Redaksiyaya daxil olub:**11.03.2021